# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

Bakı şəhəri № 235/2 30 oktyabr 2012-ci il

Azərbaycan Respublikasında 2013-cü il ərzində keçiriləcək auditor xidmətinin keyfiyyətinə nəzarətə dair iş planının təsdiq edilməsi barədə

“Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə”nin Keyfiyyətə nəzarət prosedurları II bölməsinin 2.6-cı bəndinin tələblərinə uyğun olaraq Palatanın Keyfiyyətə nəzarət Komitəsi (M.Abbasov) tərəfindən hazırlanmış 2013-cü il ərzində keçiriləcək auditor xidmətinin keyfiyyətinə nəzarətə dair iş planının layihəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə”nin Keyfiyyətə nəzarət prosedurları II bölməsinin 2.6-cı bəndinin tələblərinə uyğun olaraq Palatanın Keyfiyyətə nəzarət Komitəsi (M.Abbasov) tərəfindən hazırlanmış “Azərbaycan Respublikasında 2013-cü il ərzində keçiriləcək auditor xidmətinin keyfiyyətinə nəzarətə dair iş planı” təsdiq edilsin (əlavə olunur).
2. Keyfiyyətə nəzarət Komitəsinə (M.Abbasov, İ.Bayramov) tapşırılsın ki, 2013-cü il ərzində keçiriləcək auditor xidmətinin keyfiyyətinə nəzarət işini “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə”nin müddəalarına uyğun olaraq təşkil və təmin etsinlər.
3. Palatanın Aparatına (Q.Bayramov) və Keyfiyyətə nəzarət Komitəsinə (M.Abbasov) tapşırılsın ki, bu qərarın və təsdiq edilmiş iş planının Palatanın internet saytında yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**